

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 iyun 2021-ci il №42 (2550) https://mod.gov.az Qiymәti 30 qәpik

# Azərbaycan Ordusu xalqımızın növbəti qalibiyyət səhifəsini yazdı

***Bir yaz günü sübh çağıdı. İşğaldan azad edilmiş ərazilərdə dislokasiya olunmuş hərbi hissələrin şəxsi heyətilə görüşə tələsirik. Bunun üçün də səhərin erkən saatlarından yola çıxırıq. Evlər, küçələr, insanlar, şəhər arxada qalır. Bir müddətdən sonra düz yolları torpaq yollar əvəz edir. Yolboyu yalnız kədər, qəzəb, hiddət doğuran mənzərələr görürük. Düşmənin uzun illər ərzində yaratdığı hərbi istehkamlar, keçilməzlik mifi məhv olan "Ohanyan səddi"nin tikanlı məftillər çəkilmiş çoxcərgəli beton dirəkləri, hündürlüyü üç metrə çatan uzun torpaq bəndlər arxada qalır... Daha sonra dağıdılıb məhv edilmiş yurd yerlərimizin xarabalıqları... Ermənilər bütün yaşayış məntəqələrimizi tanınmaz hala salıb - bizim izimizi, irsimizi itirmək üçün hər cür vəhşiliyə əl atıb... Amma təsəllimiz budur ki, indi qalib ordunun hərbi qulluqçuları ilə görüşə gedirik, sevincimiz kədərimizi üstələyir, gələcəyə nikbin baxırıq, Qarabağın hər guşəsinin abadlaşdırılacağına əminik.***



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, işğaldan azad edilmiş torpaqlarımızda, yaşayış yerlərindən kilometrlərlə uzaqda dislokasiya olunan bölmələrin şəxsi heyətinin yerləşdiyi ərazilərə çatırıq. Şəxsi heyətin hərtərəfli təminatının, sosial-məişət şəraitinin və qoşun xidmətinin təşkili ilə bağlı təxirəsalınmaz tədbirlər çərçivəsində modul tipli yataqxanaların qurulması prosesi də dediklərimizin sübutudur.

Şəxsi heyətin səhra şəraitində kompakt yerləşdirilməsi üçün nəzərdə tutulan və ən müasir tələblərə cavab verən avadanlıqlarla təchiz edilən modul tipli yataqxanalarla yaxından tanış oluruq. Burada zabit və əsgər heyətinin xidmət aparması üçün bütün infrastruktur qurulub, yataqxanalar elektrik, su və qaz xətləri, tibb məntəqəsi, yeməkxana, mətbəx, eləcə də silah otaqları və hamam-sanitar qovşağı ilə təmin olunub.

Sosial-məişət şəraiti ilə tanışlıqdan sonra şəxsi heyət ilə görüşürük. Söhbət zamanı gizir Qabil Piriyev bildirir ki, Vətən müharibəsində Azərbaycan Ordusu xalqımızın şərəfli tarixinin növbəti qalibiyyət səhifəsini yazdı. "Ordumuz mənfur düşmənə döyüş meydanında layiqli yerini göstərdi. Minlərlə azərbaycanlının qürur mənbəyi olan Vətənimiz və dünya bizim savaşa hazır olduğumuzu gördü. Hər bir azərbaycanlının haqq sözü torpaqların işğaldan azad olunması və sahibinə qaytarılması idi. Biz haqqımız uğrunda vuruşduq və öz haqqımızı düşməndən aldıq.

**(Ardı 2-ci səhifədə)**



Hərbi hissənin yaranması günü münasibətilə tədbir keçirildi

**4-cü səhifədə**



Qəriblidən başlayan yol

**5-ci səhifədə**



“Azərbaycan xalqı qəhrəman xalqdır”

**5-ci səhifədə**



Şuşada Müdafiə Nazirliyinin təşkilatçılığı ilə kitab təqdimatı keçirilib

**7-ci səhifədə**

# General-polkovnik Zakir Həsənov: “Düşmən təxribatlarının qarşısının alınması məqsədilə qətiyyətli addımlar atılsın və çevik tədbirlər görülsün”

*Mayın 31-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*

Müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə yerləşən birlik və birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər də cəlb olunublar.

General-polkovnik Zakir Həsənov son günlər Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində yaranmış vəziyyəti təhlil edib. O, əməliyyat şəraiti ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarını və qarşıya qoyduğu vəzifələri müşavirə iştirakçılarına çatdırıb.

Xidməti-döyüş fəaliyyətinin təşkili ilə bağlı məsələləri xüsusi qeyd edən Müdafiə naziri düşmən təxribatlarının qarşısının alınması ilə bağlı azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrin komandanlığına qətiyyətli addımların atılması və çevik tədbirlərin görülməsini tapşırıb.



## Bakıda Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçiriləcək

*İyunun 3-də Bakıda Azərbaycan-Türkiyə 13-cü Yüksək Səviyyəli Hərbi Dialoq İclası işinə başlayacaq.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, iclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti müzakirə ediləcək.

Tərəflər hərbi və müdafiə sahəsində inkişaf perspektivlərini və əsas fəaliyyət istiqamətlərini də nəzərdən keçirəcəklər.

# Naxçıvan Qarnizonu Qoşunlarında ixtisas hazırlığı kurslarında növbəti buraxılış mərasimi keçirilib



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi yad edilib. Dövlət Himnimiz səsləndirildikdən sonra polkovnik Mübariz Rzayev kurslar zamanı hər bir kursantın müasir hərb elminə aid yeni biliklərə yiyələndiyini və praktiki vərdişlərinin təkmilləşdirildiyini qeyd edib.*



Məzunlar adından çıxış edən Vətən müharibəsi iştirakçısı Siruz Musayev keçirilən kursların əhəmiyyətindən danışıb, xidmət müddətində və kurslarda qazandıqları yeni taktiki bilikləri hər bir döyüş tapşırığının icrası zamanı uğurla tətbiq edəcəklərinə söz verib.

Naxçıvan Qarnizonunun rəisi general-polkovnik Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılan zaman bildirilib ki, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 18 illik siyasi rəhbərliyi dövründə daim Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi məsələsini diqqət mərkəzində saxlayıb. “Göstərilən diqqət və qayğının nəticəsində doğma Naxçıvanımız güclü müdafiə qüdrətinə və müzəffər Əlahiddə Ümumqoşun Orduya malikdir. Muxtar respublikanın müdafiəsində uğurla dayanan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları 44 günlük Vətən müharibəsində də qəhrəmancasına və şücaətlə döyüşərək düşmənə sarsıdıcı zərbələr endirib, işğal altında olan torpaqlarımızın azad edilməsində iştirak ediblər. İnanırıq ki, kursları uğurla başa vuran hərbi qulluqçular da döyüşlərdə iştirak etmiş yoldaşlarının təcrübəsindən yararlanaraq Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaqlar”.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və tribuna önündən təntənəli keçid olub.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan Ordusu xalqımızın növbəti qalibiyyət səhifəsini yazdı

**(Əvvəli 1-ci səhifədə)**

Damarlarında azərbaycanlı qanı axan bir hərbçi olaraq deyə bilərəm ki, Vətən qarşısındakı borcumuz hələ bitməyib. Vətəni hər zaman qoruyacaq, onun çiçəklənməsi, ordumuzun inkişafı naminə əlimizdən gələni edəcəyik. Ətrafımızdakı insanlara, cəmiyyətə verdiyimiz töhfələr və bunun əsasında yaranan xoş məqamlar həyatımızın ən dəyərli anlarını təşkil edir. Vətənimizə, xalqımıza, cəmiyyətimizin inkişafına səmərəli xidmət etmək naminə göstərdiyimiz fəaliyyət sağlam gələcəyimizin formalaşması deməkdir. Bu baxımdan Vətənimizə xidmət şərəf borcumuzdur".



Kiçik çavuş Teymur İsmayılov bildirir ki, bu gün ölkəmiz müharibədə zəfər qazansa da, torpaqlarımızı qorumağa hər zaman ehtiyac var. "Rəşadətli Azərbaycan Ordusunun əsgəri olaraq torpağımız hər birimiz üçün dəyərlidir. Qətiyyətlə deyə bilərəm ki, əsgərlərimiz ona tapşırılan mövqeləri sayıqlıqla qoruyurlar. Azərbaycan Ordusunun əsgəri mərd və qorxmazdır. Qələbə qazansaq da, hər zaman ehtiyatı əldən verməməyə çalışırıq. İçimizdə o qədər Vətən, torpaq sevgisi var ki, bu yolda ölüm də bizi qorxutmur".

"Müstəqil Azərbaycan, Vətənimiz, yurdumuz ifadəsi hamımız üçün əzizdir. Buna görə də dövlətimizin müstəqilliyini əbədi etmək üçün hər kəs əlindən gələni edir. Vətənə xidmət etmək bir əsgər kimi bizim müqəddəs borcumuzdur. Bu şərəfli borcu məsuliyyətlə yerinə yetirmək üçün üzərimizə düşən tapşırıqları, vəzifələri vaxtında və düzgün yerinə yetirir, öz xidmətimizlə digər yoldaşlarımıza da nümunə olmağa çalışırıq", - deyə çavuş Samir Ağayev yoldaşının fikrinin təsdiqi olaraq bildirir.

Əsgər Allahyar Quliyevin dediyi fikirlər hər kəsə duyğulu anlar yaşadır. "Deyirlər ki, nəyi çox istəsən, o arzun mütləq həyata keçər. Mən Qarabağı görməyi, özü də azad görməyi çox istəyirdim. İstəyirdim, Qarabağın azadlığında mənim də bir əsgər kimi payım olsun. Torpaqlarımızı azad etmək də nəsibim oldu, onu azad görmək də".

"Azərbaycan Ordusunun əsgəri kimi sevinirəm ki, bu haqda düşünməyə və danışmağa haqqımız çatır", - deyə əsgər Aydın Kərimov bildirir. - Bu gün ordumuz düşmənin bütün təxribatlarının qarşısını yerindəcə alır və daim Vətənimizin keşiyində ayıq-sayıq dayanır. Vətən müharibəsi də bunu sübut etdi ki, istənilən zaman ordumuz torpaqlarımızı azad etməyə qadirdir və yüksək döyüş hazırlığına malikdir. Bu gün deyə bilərəm ki, işğaldan azad olunmuş torpaqlarımızın qorunması və düşmən təcavüzündən müdafiə olunması üçün istənilən müqəddəs savaşa hər zaman hazırıq!

**Mayor**
**Məhəmməd ƏLİYEV**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# “Anatolian Phoenix-2021” təlimində “Yüksək səviyyəli müşahidəçi günü” keçirilib



***Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Respublikasının Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Ramiz Tahirov "Anatolian Phoenix-2021" təliminin "Yüksək müşahidəçi günü"ndə iştirak etmək məqsədilə Türkiyə Respublikasının Konya şəhərinə gəlib.***










* * *

Türkiyədə səfərdə olan Azərbaycan Respublikasının Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Ramiz Tahirov "Anatolian Phoenix-2021" təliminin "Yüksək səviyyəli müşahidəçi günü"ndə iştirak edib.

Əvvəlcə qonaqlar Türkiyə Hərbi Hava Qüvvələrinin "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan F-5 və F-16 tipli təyyarələrin nümunəvi uçuşlarını izləyiblər.

Sonra təlimin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə brifinq təqdim olunub. Qonaqlar təlimlərə cəlb edilən şəxsi heyət və aviasiya vasitələri ilə tanış olub, qarşıya qoyulan tapşırıqların praktiki icrasını müşahidə ediblər.

Təlimə cəlb olunan heyətlər müxtəlif epizodlar üzrə tapşırıqları yerinə yetiriblər.

Azərbaycan HHQ-nin hərbi qulluqçuları və Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının peşəkarlıq səviyyəsi təlim rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.



Səfər çərçivəsində təlimdə iştirak edən ölkələrin HHQ-ləri arasında əməkdaşlığın cari vəziyyəti və perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

General-leytenant R.Tahirov hərbi aviasiya sərgisində nümayiş etdirilən müasir pilotsuz uçuş aparatları və hərbi aviasiyada istifadə olunan ən yeni texnoloji avadanlıqlarla tanış olub.

HHQ komandanı təlimə cəlb olunan Azərbaycan Ordusunun nümayəndələri ilə görüşüb və onlara təlimdə uğurlar arzulayıb.

## Ermənistan silahlı qüvvələrinə məxsus PUA ələ keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus "Qrifon-12" tipli pilotsuz uçuş aparatı (PUA) bölmələrimiz tərəfindən aşkar olunaraq xüsusi texniki vasitələrlə yerə endirilib.








## Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi başa çatıb

***Təlimin sonuncu mərhələsində bölmələrin yaranmış taktiki şəraitə uyğun olaraq bir istiqamətdən digərinə yerdəyişməsi həyata keçirilib. Xüsusi təyinatlı bölmələr şərti düşmənin müdafiəsindəki araboşluğundan yararlanaraq müdafiənin dərinliklərində hakim yüksəkliklərin ələ keçirilməsi üçün təyin olunmuş rayonlara çıxarılıb.***



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, motoatıcı və tank bölmələri artilleriya bölmələrinin atəş dəstəyilə hücumu dərinliyə doğru irəlilədərək şərti düşmənin canlı qüvvəsini və döyüş texnikalarını məhv ediblər.

Aidiyyəti üzrə birləşmələrdə, eləcə də bölmələrdə təlimin nəticələri təhlil olunub, aşkar edilən nöqsanların aradan qaldırılması istiqamətində və qazanılan təcrübələrin növbəti təlimlərdə tətbiq edilməsi barədə müvafiq tapşırıqlar verilib.

# Hərbi hissənin yaranması günü münasibətilə tədbir keçirildi



***Bu günlərdə Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin yaranması günü münasibətilə təntənəli tədbir keçirildi. Tədbirdə birlik komandiri general-mayor Mayis Bərxudarov, hərbi hissənin şəxsi heyəti, Xocavənd rayon İcra Hakimiyyətinin başçısı və ictimaiyyət nümayəndələri iştirak edirdilər. Tədbirdə ümummilli lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.***



Polkovnik Elşad Əbilov Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi hissəyə ünvanlanmış təbrikini çatdırdı, eyni zamanda, Azərbaycan Ordusunun yaranma tarixindən, hərbi hissənin Vətən müharibəsində döyüş yolundan qürur hissi ilə danışdı.

Tədbirdə çıxış edən general-mayor Mayis Bərxudarov bayram münasibətilə şəxsi heyəti təbrik etdi və ölkə rəhbərliyinin hərbçilərə göstərdiyi yüksək diqqət və qayğıdan, bu sahədə əldə olunan böyük uğurlardan danışdı. "Bu gün ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol Prezident, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü ordularından birinə çevrilib".

General-mayor Mayis Bərxudarov 28 il öncə Müdafiə nazirinin müvafiq əmrinə əsasən, ordu qurumlarından biri olan "N" hərbi hissəsinin yaradılmasından da söz açdı. "Yarandığı gündən hərbi hissənin şəxsi heyəti öz vəzifə borcunu layiqincə yerinə yetirib, istər Birinci Qarabağ, istərsə də İkinci Qarabağ müharibəsində fədakarlıq nümayiş etdirib, bir çox nailiyyətlər əldə edib. Vətən müharibəsinin Qələbə ilə başa çatmasında bu hərbi hissənin də şəxsi heyətinin zəhməti böyükdür. Hərbi hissənin ərazisində şəhidlərimizin şərəfinə ucaldılan abidə sübut edir ki, tarixi Zəfərin qazanılmasına hərbi qulluqçularımız ölçüyəgəlməz töhfə verib. Biz hər zaman çalışmalıyıq ki, şərəfli zabit və əsgər adını doğruldaq, Vətənə, torpağa, dövlətimizə və dövlətçiliyimizə sədaqət nümayiş etdirək. Bu inamı daim qoruyub saxlamaq bizim vəzifə borcumuzdur".



Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov əsgərləri, çavuşları və zabitləri bu xoş gün münasibətilə səmimi qəlbdən təbrik etdi. Qeyd olundu ki, ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı mənfur düşməndən azad etdi. İcra başçısı dövlət başçısının Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan da danışdı. Zabit və əsgərləri Vətənin keşiyində ayıq-sayıq dayanmağa səslədi.

Şəhid qardaşı Arif Abuşov və Qarabağ qazisi İsmayıl Məhərrəmov da şəxsi heyəti hərbi hissənin yaranması günü münasibətilə təbrik etdilər.

Çıxışların ardınca şəxsi heyətin mükafatlandırma mərasimi təşkil olundu. Xidmətdə fərqlənən hərbi qulluqçular fəxri fərman və qiymətli hədiyyələrlə təltif olundular.

**Mayor**
**Məhəmməd ƏLİYEV**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş ukraynalı pilotun yubileyi qeyd edilib



***Azərbaycanın müstəqilliyinin ilk illərində milli hərbi aviasiya kadrlarının formalaşmasında fəal iştirak edən, Birinci Qarabağ müharibəsinin iştirakçısı, keçmiş SSRİ Hərbi Hava Qüvvələrinin (HHQ) ukraynalı hərbi pilotu, ehtiyatda olan polkovnik-leytenant Aleksey Şvaryovun 60 illik yubileyi qeyd olunub.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Ukraynadakı səfirliyi tərəfindən Kiyevdə təşkil olunan yubiley tədbirində səfirliyin hərbi attaşesi polkovnik İlqar Ağayev, onun baş köməkçisi polkovnik-leytenant Emil Allahverdiyev, ukraynalı pilot Aleksey Şvaryov, pilotun ailə üzvləri və yaxınları iştirak ediblər. Tədbirdə çıxış edən İlqar Ağayev ukraynalı hərbi pilotun Azərbaycan uğrunda xidmətlərini xatırladaraq, bir daha ona minnətdarlığını bildirib, azərbaycanlılar adından təbriklərini çatdırıb.

Sonra səfir Elmira Axundovanın adından hərbi pilota ünvanlanan fəxri fərman ona təqdim edilib.

A.Şvaryov bildirib ki, hərbi fəaliyyəti dövründə Birinci Qarabağ müharibəsi onun üçün xüsusi əhəmiyyət kəsb edir. O, 30 ildən sonra Azərbaycan Ordusunu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğala son qoyması münasibətilə təbrik edərək, bu sevinci bölüşdüyünü bildirib.

Qeyd edək ki, Şvalyov 1982-ci ildə hərbi aviasiya məktəbini bitirdikdən sonra bir çox ölkələrdə, o cümlədən Əfqanıstan, Özbəkistan və Tacikistanda xidmət edib. 1989-cu ildə döyüş helikopterlərinin peşəkar pilotu kimi Azərbaycanda hərbi xidmətini davam etdirib. 1991-ci ildə SSRİ dağılandan sonra Azərbaycan Milli Ordusu sıralarında xidmət edib. 1992-ci ilin əvvəlindən başlayaraq cəbhə bölgəsində bir neçə əməliyyat uçuşları həyata keçirib. Həmin ilin mayında isə ekipaj üzvü Rafael Şirinovla birlikdə Ağdamın Abdal-Gülablı istiqamətində erməni mövqelərinə hücum edən vaxt onların helikopteri vurulub. R.Şirinov helikopterdən tullansa da, A.Şvaryov ermənilərə əsir düşüb. Təxminən üç saat erməni əsirliyində qalsa da, Azərbaycanın xüsusi təyinatlılarının əməliyyatı zamanı əsirlikdən azad olunub. O, 1992-1994-cü illərdə Qarabağ döyüşlərində bilavasitə iştirak etmiş ehtiyatda olan polkovnik-leytenantdır.

# İtkin düşmüş daha bir hərbi qulluqçunun meyiti tapılıb

Vətən müharibəsində itkin düşmüş daha bir hərbi qulluqçunun meyiti tapılıb.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq, şəxsiyyətinin müəyyən edilməklə doğmalarına təhvil verilməsi istiqamətində Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyinin nəzarəti ilə intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

Hərbi prokurorluq orqanlarının və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının iştirakı ilə Silahlı Qüvvələrin hərbi qulluqçularından ibarət axtarış qrupları itkin düşmüş hərbi qulluqçularımızın axtarılması istiqamətində müntəzəm iş aparırlar.

İtkin düşmüş daha bir hərbi qulluqçunun - əsgər İmanov Məmmədağa İqab oğlunun meyiti Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə həyata keçirilmiş əməliyyat-istintaq tədbirlərinin nəticəsində tapılaraq, şəxsiyyəti müəyyən edilməklə aidiyyəti üzrə verilməsi üçün zəruri tədbirlər görülür.

İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyənləşdirilməsi məqsədilə əməliyyat-istintaq tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər aparılır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!



*Tarix yazan oğullar*

# Qəriblidən başlayan yol

***Tovuzun Qəribli kəndində anadan olmuşdu Cavid. Ermənilərin törətdikləri vəhşiliklər haqqında ata-anasından, müəllimlərindən çox eşitmişdi. Yeniyetmələşdikcə, gəncləşdikcə olmuşları xatırlayanda hər dəfə onun da qaşları çatılırdı, yumruqları düyünlənirdi. Belə anlarda o da üzü göylərə sarı, "Qalmaz belə, qalmaz dünya!" kəlmələrini pıçıldayırdı.***



Maliyyə-kredit kollecində təhsil almışdı. İstəyi, könül dünyasının işığına dönən niyyəti onun düşüncələrinin səmtini yeniyetməliyindən bəri aylarının, illərinin nəqarətinə dönmüş həmin bir misranın cazibəsinə çəkirdi - 2014-cü ildə hərbi xidmətə getdi. Qəriblidən başlayan yolun sonunda Zəfər olacağına inamla getdi, torpaqlarımızın işğaldan azad ediləcəyi qətiyyətiylə getdi, Ali Baş Komandanın əmri ilə döyüşlərdə iştirak edəcəyinə əminliklə getdi...

Hərbi xidməti başa çatdı. Tərxis edildi; qalib əsgər kimi tərxis edilmədiyinin təəssüfünü yaşadı Cavid Əliyev. "Döyüşlər başlayanda mən də müraciət edəcəm, mütləq müraciət edəcəm. Döyüşəcəm, mütləq döyüşəcəm..." - kəlmələrini özünün özünə təsəllisi bildi...

Bakıda reklam şirkətlərinin birində işlədi. Tərxis olunanda yaşadığı təəssüf ümidə çevrilmişdi, bu ümid - niyyətə...

Cavid ermənilərin kəndlərimizə hücumlarını, həmlələrini eşidə-eşidə boya-başa çatmışdı. Erməni vəhşiliyi onun da heysiyyətini silkələmişdi, onun da düşmənə nifrətini kükrətmişdi. "Nə vaxta kimi belə olacaq?" - atasından soruşmuşdu, hərbi xidmətdən qayıdan həmyerlilərindən soruşmuşdu, məktəbdə müəllimlərindən soruşmuşdu. Aldığı cavablar ona ancaq ümid vermişdi, digər həmyaşıdları kimi bu ümidlə ayları il eləmişdi. Bu ümidlə bitirmişdi orta məktəbi. Bakıda bu ümidlə təhsil almışdı. Onu bilirdi ki, Ali Baş Komandanın əmri məmləkətdə əli silah tutanların hamısını əsgərləşdirəcək. Onda hərbi xidmətdə olsa, əsgər kimi, tərxis edildikdən sonra olsa, səfərbərliklə döyüşlərdə iştirak etməlidi...

Ordu hissələrimiz düşmənin hücumunun qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı - Vətən müharibəsi başladı. Dövlət başçısının xalqa müraciəti milyonlardan biri kimi onun da Vətən sevgisini kükrətdi. Bu məqamın illərlə arzuladıqları məqam olduğunu qət edənlərdən biri oldu Cavid Əliyev; özünü xəyalən döyüşənlərin sırasında hiss etdi...

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə qismən səfərbərlik elan edildi. Döyüşlərə getmək, torpaqlarımızın işğaldan azad olunmasında iştirak etmək istəyən minlərlə gəncdən biri də Cavid Əliyev oldu. O da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon təşkilatına müraciət etməyi qərara almışdı - adına çağırış vərəqəsi gəldiyindən xəbərsiziydi.

Döyüşlərdəydi...

Döyüşürdü...

Şuşa uğrunda döyüş gedirdi. Bu döyüşün Vətən müharibəsini sonlandıracaq döyüş olduğunu bilmirdilər, ancaq məhz bu niyyətlə, bu qətiyyətlə döyüşürdülər. Sonralar bir rus jurnalisti bu döyüş haqqında yazacaqdı: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağyuxarı şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxırdı"...

Belə döyüşürdülər...

Döyüşçü Cavid Əliyev şəhid oldu...

Şuşanın işğaldan azad edildiyini görə bilmədi Cavid...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə Cavid Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medallarıyla təltif edildi...

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# "Azərbaycan xalqı qəhrəman xalqdır"




***Gənclərin milli şüurunun inkişafı və vətənpərvərlik hissinin formalaşması məsələləri hər zaman cəmiyyətimizin qarşısında duran aktual mövzulardan olub. Ulu öndər Heydər Əliyev hər zaman gənclərimizin Vətəninə məhəbbət, xalqına hörmət, soykökünə, adət-ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həyati əhəmiyyətli məsələ kimi baxırdı. Qəbul edilən sənədlər, imzalanan fərman və sərəncamlar - bir sözlə, bütövlükdə görülən işlər müxtəlif miqyaslı təhsil müəssisələrində ölkəmizin gələcəyi olan gənclərimizə Vətənə, xalqa, dövlətə məhəbbət hissinin aşılanması məsələsində əhəmiyyətli oldu.***

Təhsil müəssisələrində şəhidlərimizin və qəhrəman oğullarımızın əziz xatirəsinə həsr olunan tədbirlər və yarışlarda, müxtəlif muzeylərə, memorial komplekslərə ziyarətlər təşkil olunur. Hərbi vətənpərvərlik tərbiyəsinə də xüsusi diqqət yetirilir. "Gənclərin çağırışaqədərki hazırlıq" fənni yeniyetmələri hərbi xidmətə hazırlayır.

Vətən müharibəsi başlayanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncama əsasən qismən səfərbərliyin elan olunması ilə gənclərimiz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər və rayon şöbələrinə müraciət edir, döyüşlərdə iştirak etmək istədiklərini bildirirdilər. Hər kəsin gözündə qisas, üzündə Vətəni qorumağın müqəddəs vəzifə olduğunu ifadə edən cizgilər olurdu. Son döyüşlər zamanı hər bir gəncin qəlbi Azərbaycan əsgəri ilə bir döyünürdü. "Əsgərə məktub" layihəsi çərçivəsində igid oğullarımıza məktəblilər tərəfindən göndərilən minlərlə məktub vətənpərvərliyin nümunəsi idi.

"N" hərbi hissəsində zabit Eldar Bahadurlunun övladları tətil günündən istifadə edərək atalarını ziyarətə gəlmişdilər. Öncə təcrübəli zabitdən uşaqların vətənpərvər ruhda böyüməsində valideynlərin rolunu öyrəndik. Zabit qeyd etdi ki, gənc nəslin Vətəninə və millətinə sədaqət hissinin formalaşmasında hər birimizin üzərinə böyük məsuliyyət düşür. "Bir valideyn üçün övlad çox şey deməkdir, amma xalqın övladı olmaq hər adama qismət olmur. Şəhidlərimiz canı bahasına xalqın övladı oldular".

Zabit və onun övladları ilə hərbi hissənin ərazisində şəhidlərin şərəfinə ucaldılmış abidəyə yaxınlaşdıq. "Xalqımızın və dövlətimizin gələcəyə ümidləri məhz gənclərimizin fəaliyyət və xidmətləri ilə bağlıdır. Övladlarıma hər zaman savadlı və yüksək dünyagörüşünə malik şəxs kimi yetişməsindən əlavə, Vətəninə, torpağına bağlı, şəhid və qəhrəman oğulların vətənpərvərlik hissinə sadiq bir vətəndaş kimi formalaşmağın vacibliyindən danışıram. Qızlarım Əsnad və Yağmuru körpə yaşlarından vətənpərvər ruhda təlim və tərbiyə etməyə çalışmışıq. Kiçik yaşlarından dövlətimizin milli atributlarının (Dövlət gerbi, Dövlət bayrağı) yaranma tarixini və onların mənasını övladlarımıza izah etmişik, Dövlət Himnini kiçik yaşlarından əzbər bilirlər. Bir zamanlar işğalda olan rayon və şəhərlərimizin azad olunma günlərini öyrəniblər. Uşağa Vətən sevgisini aşılamamışdan qabaq, Vətəni tanıtmaq lazımdır. Qarşısında durduğumuz şəhidlər abidəsi uşaqlara, gənclərə vətənpərvərlik hissi aşılamaqda mühüm rol oynayır. Vətənimizin bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanları hər kəs tanımalı, onların ruhu hər zaman yüksək ehtiramla yad olunmalı, hər bir gənc onların ömür yollarını layiqincə yaşatmalıdır. Çünki biz bu gün onların fədakarlıqları sayəsində rahat həyat sürə bilirik".

Əsnadın "Əsgərə məktub" layihəsində iştirak etdiyini öyrəndim. "Azərbaycan əsgəri bizim qürur yerimizdir!" - deyə Əsnad söhbətə başladı. - Hərbçi qızı olaraq demək istərdim ki, bu peşə çətin və şərəfli peşədir. Atam uzun illərdir ki, hərbi qulluqçu kimi Vətənin müdafiəsindədir. Çox vaxt atam işdən gec gəlir, çünki müqəddəs amala xidmət etməyin vaxtı, vədəsi olmur. Atam boş vaxtlarını bizimlə səmərəli keçirməyə çalışır - parklara gedirik, Şəhidlər xiyabanını ziyarət edirik, dərslərimizi hazırlamaqda da bizə köməklik edir. O, bizimlə söhbətlərində Azərbaycan əsgərinin gücünü, qüdrətini xalqın dəstəyindən aldığını qeyd edirdi. Son döyüşlər mənə bu sözün mahiyyətini daha dərindən anlamağa kömək oldu. Televiziyalarda Azərbaycan əsgərinin rəşadətindən danışılırdı, hamımız fəxr edirdik. Döyüşlər vaxtı, cəbhədəki əsgərlərimizə məktub göndərərkən sevincimin həddi-hüdudu yox idi. Öncə özüm, bacım və qardaşım adından Azərbaycan əsgərinə salamımızı qeyd etdim məktubda. Onlarla fəxr etdiyimizi yazdım və qeyd etdim ki, hər zaman olduğu kimi, bu döyüşlərdə də onlara inamımız sonsuzdur. Xalqın dəstəyindən güc alan Azərbaycan əsgəri düşmənə həlledici döyüşlərə atıldı. Hər birimiz Azərbaycan əsgərinin qazandığı uğurlara sevinir, şəhid xəbərlərinə üzülürdük. Şəhidlik müqəddəslikdir. Vətən müharibəsində şəhadətə yüksələn igid oğullarımızın hər birinin adı tarixə yazıldı. Onlar qanları ilə yazdılar bu tarixi. Şəhidlərimizin hər biri yüksək ehtirama layiqdirlər, xalqımızın qəlbində hər zaman yaşayacaqlar. Onlar bizim firavanlığımız üçün öz həyatlarını qurban verdilər. Torpaqlarımızın bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksəldilər. Allah şəhidlərimizə rəhmət eləsin!

Zabit və övladları ilə leytenant Rəhman Əjdərovun, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Kamil Şıxmuradovun və əsgər Hikmət Babaşovun xatirəsinə salınmış şəhidlik abidəsini ziyarət etdik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Ələğa Şıxlinski, Səməd bəy Mehmandarov, Həzi Aslanov, Mehdi Hüseynzadə, Murad Mirzəyev, Raquf Orucov, Polad Həşimov, İlqar Mirzəyev, Şükür Həmidov kimi minlərlə mərd və cəsur oğullarımızın vətənpərvərliyi əbədidir.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

## Mövzu: Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu.**

**2. Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.**

### Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

Hər bir xalqın, millətin taleyində mühüm yer tutan hadisə azadlığa qovuşmaq və müstəqil dövlətçiliyə sahib olmaqdır. Şübhəsiz, bu yol çox çətin və məsuliyyətli bir yoldur, bu yolda gərək mübarizələrdən keçməyi, canını qurban verməyi bacarasan. Öz azadlığı uğrunda mübarizədə ölümdən çəkinməyən, son anadək mübarizə aparan millət xoşbəxtdir. Məhz Azərbaycan xalqı da tarix səhnəsində belə mübarizələrdən keçib, azadlığa aparan yolda rastına çıxan mürəkkəb şəraitlərdən çəkinməyib.

Azərbaycan müstəqillik əldə edənə qədər bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimi olan Çar Rusiyasının tərkibində idi. Birinci Dünya müharibəsinin gedişində və Romanovlar monarxiya rejiminin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, parlamentli respublika formasında dirçəldi. Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə müstəqillik əldə etmişdir.

Həmin dövrdə Azərbaycan son dərəcə mürəkkəb hərbi-siyasi şəraitdə qərar tutduğundan və qısa müddət ərzində Azərbaycan xalqının müstəqilliyinə qənim kəsilmiş bolşevik-daşnak qüvvələrinin qarşısını almağa qadir olacaq hərbi qüvvələrin yaradılması mümkün olmadığından Azərbaycan hökuməti hərbi kömək üçün Osmanlı Türkiyəsinə müraciət etdi. 1918-ci il iyunun 4-də Azərbaycanla Osmanlı Türkiyəsi arasında imzalanmış müqaviləyə uyğun olaraq Türkiyə hökuməti Azərbaycana hərbi yardım göstərmək qərarına gəldi və Azərbaycan Xalq Cümhuriyyətinə kömək üçün Türkiyə Ordusunun ümumi sayı 15000 nəfərdən ibarət iki diviziyası göndərildi. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Çar Rusiyası dövründə keçmiş Tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və general Əlağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi, 5000 nəfər şəxsi heyəti olan "Əlahiddə Azərbaycan korpusu" yaradıldı. Gənc Demokratik Cümhuriyyətin yaradıcıları milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla, milli dövlətçiliyimiz yolunda ölçüyəgəlməz, qarşısıalınmaz bir prosesə başladılar.

İyulun 11-də ölkə ərazisində hərbi səfərbərlik elan edildi. 1919-cu ilin sonunadək 25 minlik Azərbaycan Ordusu iki piyada və bir süvari diviziyasından ibarət idi. Obyektiv çətinliklər (Sentrokaspi diktaturası və ingilis müdaxiləçilərinin təmizlənilməsi) üzündən hərbi dəniz qüvvələrinin təşkilinə 1919-cu ilin sonunda başlanıldı. Hərbi nazirlik hərbi hava qüvvələrinin təşkilinin zəruriliyini nəzərə alaraq müvafiq kadrların hazırlanması üçün 1919-cu ildə Azərbaycan-Gürcüstan hərbi əməkdaşlıq müqaviləsi bağladı. Bu müqaviləyə əsasən Azərbaycandan bir qrup heyət təyyarəçi peşəsinə yiyələnməsi üçün Tiflis Aviasiya məktəbinə göndərilmişdir. Milli kadrlara olan ehtiyacların ödənilməsi üçün isə Hərbi Nazirlik 1920-ci ildə Azərbaycanda hərbi təyyarəçilər məktəbini açmışdır.

1918-ci ildə dünyada və regionda baş verən ictimai-siyasi hadisələrə görə Azərbaycanda mövcud olan milli hərbi qüvvələrin və Azərbaycana göndərilmiş olan Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı və Azərbaycanda ordu quruculuğuna və ordu hissələrinin fəaliyyətinə rəhbərlik Azərbaycan hökumətinin razılığı ilə Qafqaz İslam Ordusu komandanına həvalə edildi. Ona görə Azərbaycan hökumətinin ilk kabinetinin tərkibinə daxil edilmiş Hərbi Nazirliyin təşkili müvəqqəti olaraq təxirə salındı. Hökumət strukturunda isə Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqələri nizamlayacaq hərbi işlər üzrə baş müvəkkil vəzifəsi təsis olundu və İsmayıl xan Ziyadxanov bu vəzifəyə təsdiq edildi. Qafqaz İslam Ordusunun mövcudluğu dövrü Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun birinci mərhələsini təşkil etmişdir. 1918-ci il noyabrın 1-dən isə Cümhuriyyətin ordu quruculuğunun ikinci mərhələsi başlayır. Həmin gün Azərbaycan hökuməti Hərbi Nazirliyin bərpa edilməsi haqqında qərar qəbul etdi. Nazirlər Şurasının qərarına əsasən Azərbaycan hökumətinin sədri Fətəli xan Xoyski hərbi nazir vəzifəsini öz üzərinə götürdü. Rusiya ordusu sıralarında tam artilleriya generalı rütbəsinə qədər şərəfli xidmət yolu keçmiş Səməd bəy Mehmandarov isə hərbi nazirin müavini təyin edildi və Hərbi Nazirliyin formalaşdırılması ona həvalə olundu.

1918-ci il dekabrın 25-də Səməd bəy Mehmandarov Azərbaycan hökumətinin qərarı ilə hərbi nazir, dekabrın 29-da isə general-leytenant Əlağa Şıxlinski (28 iyun 1919-cu ildən etibarən tam artilleriya generalı) hərbi nazirin müavini vəzifəsinə təyin edildilər. Hökumət Hərbi Nazirliyin qarşısında ölkənin ərazi bütövlüyünü müdafiə etməyə qadir olan ordunun yaradılması vəzifəsini qoymuşdu. Hərbi Nazirliyin rəhbərləri olan Səməd bəy Mehmandarovun, Əlağa Şıxlinskinin və onların həmkarları olan general-mayor Həbib bəy Səlimovun, general-mayor Süleyman bəy Əfəndiyevin, general-mayor İbrahim ağa Usubovun, general-mayor Cavad bəy Şıxlinskinin və başqalarının fədakar xidmətləri nəticəsində bu vəzifənin öhdəsindən uğurla gəldilər. Cümhuriyyətin süqutu ərəfəsində Azərbaycan Ordusunda hər biri səkkiz alaydan ibarət olan iki piyada diviziyası, üç alaydan ibarət olan süvari diviziyası, iki topçu briqadası və digər hissə və bölmələr mövcud idi. Məhz bu qüvvələrin vasitəsilə 1920-ci ilin martında Ermənistanın hərbi qüvvələrinin və Qarabağdakı separatçı qüvvələrin Azərbaycanın müstəqilliyinə qarşı geniş hərbi təcavüzünün qarşısını almaq mümkün oldu.

### Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri

Moskvada 1991-ci ilin avqust hadisələrindən sonra Azərbaycanda da ictimai-siyasi vəziyyət daha da kəskinləşdi. Suverenlik, müstəqillik və azadlıq uğrunda mübarizə əməli vəzifəyə çevrildi. Dağlıq Qarabağ özünü müstəqil respublika elan etmişdi. Ermənilər Dağlıq Qarabağdakı Rusiya ordu hissələrinin köməyi ilə Azərbaycanın ətraf yaşayış məntəqələrini işğal edirdilər. Hakimiyyət isə ciddi tədbirlər görmək iqtidarında deyildi. Belə bir tarixi və mürəkkəb şəraitdə Azərbaycanda Müdafiə Nazirliyinin bərpasına zərurət yarandı. Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da çağırılmış növbədənkənar sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" qəbul etdi. Həmin qərarın əsasında Respublika Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsasən, Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlanıldı. 1991-ci il oktyabrın 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qanun qəbul edildi. Bu qanuna əsasən 1991-ci ilin noyabrında 22 sərhədyanı bölgədə döyüş qabiliyyətinə malik olmayan, lazımi silah-sursatla təmin olunmayan yerli əhalidən könüllü ərazi özünümüdafiə batalyonları yaradıldı.

1991-ci ilin sonlarından başlayaraq ölkə daxilində hərbi-siyasi vəziyyətin mürəkkəb olması, hakimiyyətdə olan qüvvələrin ordu quruculuğu sahəsində səmərəli siyasət izləyə bilməməsi, ictimai-siyasi hərəkatların ordu daxilində qarışıqlıq yaratmaq cəhdləri, ordunun vahid komandanlıq və bir mərkəzdən idarəolunma prinsipindən tamamilə məhrum edilməsi 1993-cü ilin ortalarına kimi davam etmişdir.

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın dövlətçilik tarixində istinad nöqtəsi oldu. Tarixi şəxsiyyətlər tarixin axarını xalqının, millətinin mənafeyi istiqamətinə yönəldə bilir. Mustafa Kamal Atatürk Türkiyəni xilas etdi, Heydər Əliyev Azərbaycanı. Ulu Öndərin vahid komandanlığın təmin edilməsi sahəsində gördüyü məqsədyönlü tədbirlər nizami ordunun formalaşmasına səbəb olmaqla yanaşı, Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə də gətirib çıxartdı. Nəticədə mərkəzləşmiş maddi-texniki təminat işində də uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin, ayrı-ayrı hərbi hissələrin təminatı həyata keçirilməklə formalaşması başa çatdırıldı, fərarilik hallarının qarşısı alındı, orduya çağırış işi təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi.

Ümummilli liderimiz Heydər Əliyev ordu quruculuğu prosesinə 1969-cu ildə respublikaya rəhbər seçilməsi ilə başlamışdır. Belə ki, hərbi kadr sahəsində atdığı addımlar, Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması, azərbaycanlıların hərbi məktəblərə daxil olmasının təmin edilməsi, milli zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi Azərbaycanın hərb tarixində yeni bir mərhələnin əsasını qoydu. Ümummilli Lider tərəfindən ordu quruculuğu sahəsində milli maraqlarımızın qorunaraq inkişaf etdirilməsi istiqamətində atılan tarixi addımlar sonradan müstəqil Azərbaycanda mərkəzləşdirilmiş nizami ordunun yaranmasına təkan oldu. Dahi rəhbər Heydər Əliyev güclü və intizamlı ordunun yaradılmasının, həm də yüksək ixtisaslı milli zabit kadrların mövcudluğundan asılı olduğunu nəzərə alaraq Hərbi Akademiyanı yaratdı, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik Məktəblərini formalaşdırdı. Bütün bunlar sübut edir ki, bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Ordusu bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Ordu quruculuğunda mühüm rol oynayan kadr hazırlığı da ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilir. Eyni zamanda, Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bundan başqa ölkə daxilində Türkiyə Silahlı Qüvvələrinin qoşun növləri ilə "TurAz Qartalı-2020" və "Sarsılmaz Qardaşlıq-2020" təlimlərində iştirak etmişlər. Bu təlimlər isə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin, döyüş, əməliyyat və səfərbərlik hazırlığının yüksəldilməsi, eləcə də saxlanılmasına və növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İşğalda olan ərazilərimizin düşməndən azad edilməsini qarşıya prioritet vəzifə qoyan Prezident İlham Əliyev ordu quruculuğunun daha da inkişaf etdirilməsini dövlətin ən vacib vəzifələrindən hesab edir və bu istiqamətdə məqsədli islahatlar həyata keçirir. 2005-ci ildən bu günə qədər Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1300 adda hərbi təyinatlı silah-sursat istehsal olunub və bu gün bu proses davam etdirilir. Azərbaycanda ən müasir hərbi texnika, silah-sursatın istehsal olunması ilə bərabər, eyni zamanda, xarici dövlətlərdən də alınması üzrə fəaliyyətlər davam etdirilir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Təbii ki, Azərbaycan Ordusu gücünü 2016-cı ilin Aprelində, 2018-ci ilin mayında və eləcə də 2020-ci ilin sentyabrında ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı Vətən müharibəsində beşinci nəsil müharibə uğurları ilə də isbatladı.

Azərbaycanda ordu dövlət üçün prioritetdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair sərəncamları dövlətin orduya qayğısının geniş ölçülü təzahürüdür. Bu qayğı dönməzdir, daimidir. Azərbaycanda ordu quruculuğu dönməz prosesdir. Bu proses ordunun döyüş qabiliyyətinin, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Şuşada Müdafiə Nazirliyinin təşkilatçılığı ilə kitab təqdimatı keçirilib




***Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə kitab təqdimatı keçirilib.***




Məşhur "Gəncə qapısı" tarixi memarlıq abidəsinin qarşısına toplaşan 44 günlük Vətən müharibəsinin iştirakçıları və ölkəmizin mirvarisi olan gözəl Şuşamızın müdafiəsində bu gün də mərdliklə dayanan Azərbaycan Ordusunun hərbi qulluqçuları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Polkovnik Elşad Əbilov bu gün Şuşada kitab təqdimatı keçirilməsinin heç də təsadüfi olmadığını qeyd edərək bildirib ki, Şuşada tarixən elmə, təhsilə, ədəbiyyat və incəsənətə böyük maraq olub. Vaxtilə burada zəngin muzeylər, kitabxanalar fəaliyyət göstərib. "Məclisi - üns", "Məclisi - fəramuşan" poeziya məclislərində onlarla şairlər formalaşıb, püxtələşib, inkişaf edib. Yurdumuzun bu füsunkar guşəsi Azərbaycanın mədəniyyət xəzinəsinə görkəmli rəssam, şair, alim Mir Möhsün Nəvvab, şairə və rəssam Xurşidbanu Natəvan, ədəbiyyatımızda tarixi dram janrının banisi Əbdürrəhim bəy Haqverdiyev, milli dramaturgiyamızda faciənin əsasını qoyan Nəcəf bəy Vəzirov, ilk ədəbiyyat tarixçisi, maarifçi, Qori və Qazax seminariyalarının müdiri Firudin bəy Köçərli, satirik şeirimizin təməlini qoyanlardan biri Qasım bəy Zakir, Şərqdə ilk operanın banisi, böyük dramaturq, musiqili komediya janrının yaradıcısı, qüdrətli publisist Üzeyir Hacıbəyli, ilk tarixi romanlar müəllifi Yusif Vəzir Çəmənzəminli, Azərbaycan dövlətçiliyinin ilk nəhəng ideoloqlarından biri, yazıçı-publisist, alim, erməni terrorizminə qarşı ilk türk "Difai" milli təşkilatının yaradıcısı Əhməd bəy Ağayev və neçə-neçə böyük sənətkarlar bəxş edib.

Nəzərə çatdırılıb ki, Şuşa və şuşalılar zaman-zaman yadellilərin hücumlarına məruz qalsalar da, tarixin sərt sınaqlarından uğurla çıxıb, bu müqəddəs torpağı canları, qanları bahasına mərdliklə qoruyublar.

2020-ci ildə Ermənistanın təxribatlarına cavab olaraq dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında "Dəmir yumruq" əməliyyatı ilə başladığımız Vətən müharibəsi məhz



Şuşanın işğaldan azad edilməsi ilə Zəfərlə başa çatıb.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamlayaraq məlumat verib ki, müəllifi olduğu "Vətən müharibəsi şəhidləri" nəşri yeddi kitabdan ibarət olacaq və bu kitablarda Vətən müharibəsində şəhadətləri ilə tarix yazan, adları tarixə yazılan üç minə yaxın şəhidimizin həyatı, Vətənə sədaqətli xidmətləri və şanlı döyüş yolu barədə ətraflı məlumatlar veriləcək.

Birinci kitab Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Hərbi Qənimətlər Parkında təltif olunan hərbi qulluqçularla görüşdə çıxış edərkən dediyi bu fikirlərlə başlanır: "Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların yaxınlarına səbr versin. Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı..."

Təqdim olunan 800 səhifəlik ilk kitabda Azərbaycan Ordusunun şəhid zabit və gizirlərinin əbədiyaşar




ömürlərinə çıraq tutulur. Bütün cəbhələrdə, eləcə də Şuşa istiqamətində, Şuşa şəhərində son gülləyə, son nəfəsədək vuruşan qəhrəman şəhid döyüşçülərimiz ehtiramla xatırlanırlar. Nə qədər müstəqil Azərbaycan dövləti var, nə qədər qədirbilən xalqımız var, onlar heç vaxt unudulmayacaq, xatirələri əziz tutulacaq, adları əbədiləşdiriləcək, bu kimi nəşrlərdə, ürəklərdə yaşayacaqlar.

Kitabın ilk nüsxələri Şuşaya qədər şərəfli döyüş yolu keçmiş və xidmətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə yüksək qiymətləndirilmiş, orden-medallara layiq görülmüş hərbi qulluqçular Tural Qocayev, Elçin Hüseynov, Cavid Mustafayev, Yusif Əlizadə, Şamxal Novruzlu, Nizam Aydəmirova və hərbi hissənin kitabxanasına hədiyyə edilib.

Aprel döyüşlərinin, o cümlədən Vətən müharibəsinin qəhrəman iştirakçılarından olan reaktiv-artilleriya batareyasının komandiri Elçin Hüseynov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu şəhid Nizami Aydəmirovla birgə döyüşlərdə fəal iştirak edən qardaşı əsgər Nizam Aydəmirov çıxış edərək şəhidlərin intiqamını artıqlaması ilə aldıqlarını və bu gün də Müzəffər Ali Baş Komandanın əmri ilə istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadir olduqlarını vurğulayıblar.

Müəllif və tədbir iştirakçıları yüksək poliqrafiya keyfiyyətinə malik "Vətən müharibəsi şəhidləri" silsiləsindən birinci kitabın nəşrə hazırlanmasında və işıq üzü görməsində göstərdiyi xeyirxah köməyə görə Müdafiə Nazirliyinin və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rəhbərliyinə, eləcə də "Apostrof-A" nəşriyyatının kollektivinə minnətdarlıq ediblər.

Məlumat üçün bildiririk ki, nəşr olunan birinci kitab 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününədək şəhid ailələrinə, respublikanın mərkəzi muzey və kitabxanalarına hədiyyə ediləcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin təhlükəsizlik qüvvələri beş ayda 1162 terrorçunu zərərsizləşdirib



Türkiyənin təhlükəsizlik qüvvələri ölkə daxilində və dövlət sərhədi məntəqələrində antiterror əməliyyatlarını uğurla davam etdirir.

Cari il yanvarın 1-dən indiyədək 43-ü geniş miqyaslı, 138-i orta səviyyəli olmaqla ümumilikdə 181 antiterror əməliyyatı keçirilib. Bu proseslərdə ümumilikdə 1162 terrorçu zərərsizləşdirilib. Onlardan 225-i may ayında məhv edilib.

Bildirilir ki, PKK-KCK-PYD-YPG, FETÖ və İŞİD də daxil olmaqla bütün terror təşkilatlarına qarşı qətiyyətlə mübarizə aparılır.

## ABŞ Əfqanıstanda yeni missiyaya başlayır



ABŞ öz qoşunlarını Əfqanıstan ərazisindən çıxarmaq prosesinə paralel olaraq Kabil hökuməti və təhlükəsizlik qüvvələri ilə münasibətlərin başqa müstəvidə inkişafına yönələn yeni missiyaya başlayır.

Bu barədə Pentaqonun mətbuat katibi Con Kirbi dünən keçirdiyi brifinqdə məlumat verib. "ABŞ bundan sonra Əfqanıstanla bütün hökumət sahələrində - diplomatik, iqtisadi və əlbəttə, təhlükəsizlik sahəsində yeni münasibətləri inkişaf etdirəcək. Bizim Əfqanıstan milli müdafiə idarələri və təhlükəsizlik qüvvələri ilə münasibətlərimiz davam edəcək, amma başqa formada davam edəcək", - deyə mətbuat katibi qeyd edib.

Kirbi vurğulayıb ki, Birləşmiş Ştatlar qoşunları çıxarmaqla bu regionu tərk etmir. Orada hələ də təhlükələr mövcuddur.

Hazırda Əfqanıstandakı Amerika qoşunlarının 16-25 faizi çıxarılıb. ABŞ və NATO qoşunların rəsmi çıxarılması prosesinə mayın 1-də başlayıb. Sentyabrın 11-dək Əfqanıstanı 3500 Amerika hərbi qulluqçusu və NATO-nun 7000 əsgəri tərk etməlidir. Əməliyyatların pik vaxtında ABŞ və müttəfiqlərinin bu ölkədəki hərbçilərinin sayı 150 mindən çox idi.

## KİV: Hərbçilər Malinin müvəqqəti Prezidentini və baş nazirini azad edib



Malinin müvəqqəti Prezidenti Ba Ndao və ölkənin Baş naziri Moktar Uan həbsdən azad edilib.

Bu barədə France-Presse agentliyinə Mali ordusunun nümayəndəsinə istinadla məlumat yayıb. "Ölkənin müvəqqəti Prezidenti və Baş naziri mayın 27-nə keçən gecə azad edilib", - deyə hərbçi bildirib. Onun sözlərinə görə, müvafiq razılaşma Nigeriyanın sabiq Prezidenti Qudlak Conatanın rəhbərliyi ilə Malidə səfərdə olan Qərbi Afrika Ölkələri İqtisadi Birliyinin vasitəçiləri ilə görüşlər nəticəsində əldə edilib.

Qeyd edək ki, Malinin müvəqqəti Prezidenti Ba Ndao və müvəqqəti Baş nazir Moktar Uan mayın 24-də hərbçilər tərəfindən saxlanılaraq paytaxt yaxınlığındakı hərbi bazaya aparılıb. Ölkənin vitse-prezidenti Assimi Qoita onların konstitusiyanı müvəqqəti əvəz edən keçid nizamnaməsini pozduqlarına görə səlahiyyətlərindən məhrum edildiyini bildirib. Vitse-prezidentin sözlərinə görə, prezident və baş nazir yeni hökumətdə nazirləri təyin edərkən güc blokunun tərkibini onunla razılaşdırmayaraq nizamnamənin əsas müddəalarını kobud şəkildə pozublar.

Dövlət və hökumət başçılarının Qərbi Afrika Ölkələri İqtisadi Birliyinin təzyiqi nəticəsində azad edilməsi variantı da istisna edilmir. Belə ki, qurumun vasitəçilərinin Mali hakimiyyətini hərbi sanksiyalarla hədələdiyi bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəxsi heyəti maraqlandıran məsələlərin öyrənilməsi məqsədilə Azərbaycan Ordusunda sorğular keçirilir






***2021-ci il üçün hazırlıq planına əsasən, şəxsi heyəti maraqlandıran məsələlərin öyrənilməsi məqsədilə Azərbaycan Ordusunda anonim sorğular keçirilir.***

Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi zabitlərinin iştirakı ilə keçirilən sorğular zamanı hərbi qulluqçularla müxtəlif mövzularda söhbətlər aparılır, onların xidmətlə bağlı sualları cavablandırılır və müraciətləri qeydə alınaraq tədbirlər görülməsi üçün müvafiq addımlar atılır.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görülən işlərin təsir və effektivliyinin artırılması məqsədilə Müdafiə nazirinin tapşırığına əsasən sorğular bütün qoşun növləri, birlik, birləşmə və əlahiddə hərbi hissələrdə planlı şəkildə il ərzində həyata keçiriləcək.

# Naxçıvanda keçirilən “Nə? Harada? Nə zaman?” intellektual oyunu Vətən müharibəsinə həsr edilib





***Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseydə "Zəfərə gedən yol və 44 günlük müharibə" devizi altında "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, əvvəlcə nazirliyin əməkdaşı Sənan Bədəlov çıxış edərək Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərdən danışıb. Deyib ki, qazanılan şanlı Qələbə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, böyük siyasi iradəsi, əsgər və zabitlərimizin şücaəti, gənclərimizin hər şeydən üstün tutduğu Vətən sevgisi ilə qazanıldı. Azərbaycan Ordusunun yüksək döyüş bacarığı sayəsində 30 illik həsrətimiz bitdi, haqq mübarizəmizdə layiqli qələbə əldə etdik. Bir zamanlar silahsız və köməksiz mülki əhaliyə divan tutan dırnaqarası "yenilməz erməni ordusu" mifi cəmi 44 gün ərzində məhv edildi. Xalqımızın mədəniyyət və mənəviyyat mərkəzi sayılan Şuşa azad olundu.



Qeyd olunub ki, yarışı keçirməkdə əsas məqsəd kursantların dünyagörüşünün, zehni inkişafının stimullaşdırılması, Vətən müharibəsi haqqında biliklərinin artırılması, müharibə qəhrəmanlarını daha yaxından tanımalarının təmin edilməsidir.

Kursantlardan ibarət 8 komandanın iştirak etdiyi oyunda II Qarabağ müharibəsi ilə bağlı 24 sual səsləndirilib. Hər düzgün cavab 1 xalla qiymətləndirilib. Nəticələrə əsasən, "Qarabağ" komandası 20 xalla qalibiyyət əldə edib. "Aslanlar" 19 xalla ikinci, "Mübariz" isə 18 xalla üçüncü pillədə qərarlaşıb.

Qalib komandalar təşkilatçılar tərəfindən kubok, diplom, fəxri fərman, oxunması zəruri kitablar və dünya ədəbiyyatı nümunələri ilə mükafatlandırılıblar.

# İdman

## Gimnastımız İvan Tixonov dünya kuboku yarışlarında bürünc medal qazanıb



Aerobika gimnastlarımızın Vətəndə dünya çempionu olduqdan sonra daha bir medal xəbəri Bolqarıstanın Varna şəhərindən gəldi.

İdmançımız Varnada keçirilən idman gimnastikası üzrə dünya kubokunda fərqlənib. Yarışda ölkəmizi idman gimnastikası üzrə yığma komandanın üzvləri İvan Tixonov və Nikita Simonov təmsil ediblər.

Yarışda 3 final mərhələsinə adlamış İ.Tixonov kubok yarışlarının sonuncu günündə dayaqlı tullanma aləti üzrə icra etdiyi çıxışına görə bürünc medal qazanıb. Paralel qollar üzrə finalda isə gimnastımız medalın bir addımlığında dayanıb. Halqalarla nümayiş etdirdiyi proqrama görə 5-ci olub.

Halqalarla yarışda finala adlamış digər gimnastımız N.Simonov isə 6-cı pillədə qərarlaşıb.

## İki güləşçimiz U-15 Avropa çempionatında gümüş medal qazanıb



Bolqarıstanın paytaxtı Sofiyada keçirilən U-15 Avropa çempionatında yunan-Roma güləşçilərinin mübarizəsinə yekun vurulub.

Qitə birinciliyində ölkəmizi təmsil edən idmançılardan ikisi fəxri kürsüyə qalxıb. Turan Daşdəmirov (38 kiloqram) və Rinat Nuriyev (62 kiloqram) Avropa çempionatını gümüş medalla başa vurublar.

Qeyd edək ki, yarışda beynəlxalq dərəcəli hakimimiz Bəşir İsazadə ədaləti qoruyub.

## Azərbaycan komandası aerodans proqramında dünya çempionu olub




Bakıda keçirilən aerobika gimnastikası üzrə dünya çempionatında aerodans proqramında Azərbaycan komandası qalib gəlib.

Nurcan Cabbarlı, Mədinə Mustafayeva, Nərminə Hüseynova, Ayxan Əhmədli, Nigar İbrahimbəyli və Akif Kərimlidən ibarət Azərbaycan komandası 18,400 xal yığaraq qızıl medal qazanıb.

Gümüş medalı Rusiya (18 xal), bürünc medalı isə Macarıstan (17,800 xal) komandası əldə edib.

## Azərbaycan triatlonçusu Açıq Afrika kuboku yarışlarında gümüş medal qazanıb



Azərbaycan triatlonçusu cari ildə beynəlxalq arenada ilk uğuruna nail olub. Millimizin üzvü Kseniya Levkovskaya Tunisdə keçirilən açıq Afrika kuboku yarışında gümüş medal qazanıb. İdmançımız bu nəticə ilə həm də aktivinə reytinq balları yazdırıb.

K.Levkovskaya su yarışlarında 750 metrlik məsafəni 9 dəqiqə 46 saniyəyə başa vurub. Sonra velosipedlə hərəkətlərdə 20 kilometrlik məsafəni 29 dəqiqə 16 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 5 kilometr məsafəyə qaçışda isə təmsilçimiz 18 dəqiqə 11 saniyəlik nəticə göstərib.

Ümumi hesabda Azərbaycan idmançısı 58 dəqiqə, 1 saniyəlik göstərici ilə ikinci yeri tutub.

Açıq Afrika kuboku Olimpiadaya seçmə turniri statusuna malik reytinqli yarışdır.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor vəzifəsini icra edən** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 294
Nüsxə 4050